**Qərar № 34/258**

# 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 15 oktyabr 2015-ci il tarixli 100 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hacılı Namiq Mahmud oğlu 15 oktyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarını mübahisələndirmiş, dairə seçki komissiyasının qərarının ləğv edilməsini və namizədliyinin qeydə alınmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd N.M.Hacılı müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş, həmin dairənin ərazisində seçicilərin imzası toplanılaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədlər dairə seçki komissiyasına təqdim edilmiş, lakin nəticədə dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizəd kimi qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası mübahisələndirilən qərarında namizədliyi irəli sürülmüş N.M.Hacılı tərəfindən təqdim edilmiş 548 seçici imzasından 148-nin etibarsız olmasını əsas götürərək namizədin qeydə alınmasından imtina etmişdir.

Araşdırma prosesində Mərkəzi Seçki Komissiyası nəzdində fəaliyyət göstərən işçi qrupu tərəfindən namizədin qeydə alınması üçün zəruri olan seçki sənədlərinin yoxlanılması nəticəsində tərtib edilmiş 15 oktyabr 2015-ci il tarixli protokol və rəylərə əsasən, N.M.Hacılının namizəd kimi qeydə alınması üçün təqdim etdiyi imzalardan 540 seçici imzası etibarlı hesab edilmişdir ki, bu da onun namizəd kimi qeydə alınması üçün kifayət edir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 147.1-ci maddəsinə əsasən, namizədin müdafiəsi üçün onun irəli sürüldüyü seçki dairəsinin ərazisində seçicilərin azı 450 imzası toplanılmalıdır.

Göstərilənlərə əsasən, şikayət əsaslı olduğundan təmin edilməli, 89 saylı Göyçay-Ağdaş seçki dairəsi dairə seçki komissiyasının N.M.Hacılının namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə 6 oktyabr 2015-ci il tarixli 13/45 saylı qərarı ləğv edilməli və o, həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 147.1-ci, 148.1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hacılı Namiq Mahmud oğlunun 15 oktyabr 2015-ci il tarixli 100 saylı müraciəti əsaslı olduğundan təmin edilsin, dairə seçki komissiyasının 6 oktyabr 2015-ci il tarixli 13/45 saylı qərarı ləğv edilsin.

2. 89 saylı Göyçay-Ağdaş seçki dairəsi üzrə namizədliyi Müsavat Partiyası tərəfindən irəli sürülmüş Hacılı Namiq Mahmud oğlu həmin seçki dairəsi üzrə deputatlığa namizəd kimi qeydə alınsın.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

***16.10.2015***